## FİLMOQRAFİYA



*1.* ***Abbas Səhhət (qısametrajlı sənədli film, 2007) (AzTV) – musiqisindən istifadə edilən bəstəkar. (Uşaqlığın son gecəsi)***

***2. Abşeron ritmləri (film, 1970) (tammetrajlı musiqili-bədii film)***

Abşeron ritmləri tammetrajlı bədii musiqili televiziya filmi rejissor Eldar Quliyev tərəfindən 1970-ci ildə ekranlaşdırılmışdır. Film "Azərbaycanfilm" kinostudiyasında istehsal edilmişdir. Film incəsənət ustadlarının Azərbaycan zəhmətkeşləri qarşısında yaradıcılıq hesabatıdır. Burada tamaşaçılar musiqinin sədaları altında Bakının seyrinə çıxır, Azərbaycan bəstəkarlarının yeni əsərləri ilə tanış olurlar. Filmdə Rəşid Behbudov, Zeynəb Xanlarova, "Qaya" Vokal Kvarteti, Flora Kərimova, Oqtay Ağayev, Rəfiqə Axundova, Vladimir Pletnyov, Rafiq Babayev və onun idarəsilə kvartet, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı, ***Polad Bülbüloğlu***, Aliyə Ramazanova və Ramiz Məmmədov iştirak edirlər.

2012-ci ildə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Azərbaycan Dövlət Film Fondu Rusiya Dövlət Film Fondu ilə birgə "Abşeron ritmləri" filminin elektron versiyasını hazırlamışdır.

***Filmin heyəti***

Filmin üzərində işləyənlər
Rejissor: Eldar Quliyev
Ssenari müəllifi: İmran Qasımov
Operator: Rasim Ocaqov
Rəssam: Kamil Nəcəfzadə
Bəstəkar***: Polad Bülbüloğlu***

***3. Aktrisanın təbəssümü (film, 1974)***

Aktrisanın təbəssümü filmi rejissor Rauf Kazımovski tərəfindən 1974-cü ildə ekranlaşdırılmışdır. Film Azərbaycan Televiziyasında istehsal edilmişdir. Bioqrafik film aktrisa Nəsibə Zeynalovaya həsr olunub. Filmdə əsas rolları Nəsibə Zeynalova, Lütfəli Abdullayev, İmamverdi Bağırov, Nəcibə Behbudova, Mobil Əhmədov, Əzizağa Qasımov, Məmmədsadıq Nuriyev, Ofeliya Aslan, Səyavuş Aslan və Hacıbaba Bağırov ifa edirlər.

Rejissor: Rauf Kazımovski
Ssenari müəllifi: Rauf Kazımovski

***4. Ay çox, il çox... (film, 1985) MOZALAN № 96***
***https://www.youtube.com/watch?v=eeED_QVDMg0***




***5. Babək (film, 1979)***Babək tammetrajlı bədii filmi rejissor Eldar Quliyev tərəfindən 1979-cu ildə ekranlaşdırılmışdır. Film "Mosfilm" və "Azərbaycanfilm" kinostudiyalarının birgə məhsuludur. Babəkin azadlıq hərəkatı filmin əsasını təşkil edir. Azərbaycan SSR-in ən bahalı filmidir. Filmdə əsas rolları Rasim Balayev, Həsənağa Turabov, Amaliya Pənahova, Tamara Yandiyeva, Şahmar Ələkbərov, Məmməd Verdiyev, Hamid Azayev və Ənvər Həsənov ifa edirlər.

***Film haqqında***

Filmə Rusiya SFSR 650 min, Azərbaycan SSR isə 1 milyon rubl ayırmışdır.
Film 1-ci kateqoriya almışdır.
Filmin bir il ərzində 35 milyon tamaşaçısı olub.
Film 60-a yaxın ölkə tərəfindən alınmışdır.

***Filmin üzərində işləyənlər***

Ssenari müəllifi: Ənvər Məmmədxanlı
Rejissor: Eldar Quliyev
Operator: Rasim İsmayılov
Rəssam: Mayis Ağabəyov
Qeyim üzrə rəssam: Tahir Tahirov
Bəstəkar: Polad Bülbüloğlu

***6. Bombardıman (film, 1991)***

***7. Cavanşir ( cizgi filmi, 2002)***

Cavanşir — rejissor Elçin Hami Axundovun 2002-ci ildə çəkdiyi hərbi-vətənpərvərlik mövzusunda olan bu kinolentdə yeniyetmə bir oğlanın Qarabağ müharibəsində göstərdiyi qəhrəmanlıqdan danışılır.

***Film haqqında***

Cizgi filmi Azərbaycanda ilk dəfə olaraq kompüter vasitəsilə yaradılmışdır.
Film Aylinə və onun həmyaşıdlarına həsr olunmuşdur.
Film "Bəsmələ" ilə başlayır.

***Film üzərində işləyənlər***

Ssenari müəllifi: Elçin Hami Axundov (Elçin Axundov kimi)
Quruluşçu rejissor: Elçin Hami Axundov (Elçin Axundov kimi)
Quruluşçu rəssam: Gülşən Quliyeva, Elçin Axundov
Multiplikasiya rəssamı: Firəngiz Quliyeva, Rauf Dadaşov, Gülşən Quliyeva, Arifə Hatəmi
Filmin direktoru: Heydər Dadaşov
Musiqisindən istifadə edilən bəstəkar: ***Polad Bülbüloğlu***




### 8. *Dolu (film, 2012)*

Dolu — tammetrajlı bədii müharibə filmi rejissor Elxan Cəfərov tərəfindən 2012-ci ildə ekranlaşdırılmışdır. Film Azərbaycanın döyüş yolu və Ermənistan-Azərbaycan münaqişəsi zamanı baş vermiş gerçək hadisələrdən bəhs edir. Film Qarabağ müharibəsi mövzusunda Aqil Abbasın eyniadlı romanı əsasında çəkilmişdir. Film "Azərbaycanfilm" kinostudiyasında istehsal edilmişdir. Əsas rolları Məmməd Səfa, Rza Rzayev, Elvin Əhmədov, Fuad Poladov, Gülzar Qurbanova, Şamil Süleymanlı, Fərhad İsrafilov, Rövşən Ağayev, Cavanşir Hadıyev, Şahmar Qəribli, Vüqar Vəlixanov, Vüsal Murtuzəliyev ifa edirlər.

***Film haqqında***

Film aktyor Mayak Kərimovun kinoda son işidir.

Filmdəki trük səhnələrinin çəkilişlərində Azərbaycan Kaskadyorlar Assosiasiyasının üzvləri iştirak etmişdir.

Filmin döyüş və kütləvi səhnələrində Daxili Qoşunların 200-dən çox əsgər və zabiti çəkilib.

Filmin premyerası 2 avqust 2012-ci ildə Nizami Kino Mərkəzində keçirilən Azərbaycan Milli Kino Günündə olmuşdur.

Filmdə coğrafi məkan kimi Şəmkir, Ağdam, İsmayıllı, Ağcabədi, Sumqayıt, Sumağallı, Bakı və Xızı seçilib.

Filmin nümayişi 6 dekabr 2012-ci ildə Rusiyanın Ryumina adına Folklor Mərkəzində, 21 yanvar 2013-cü ildə Gürcüstanın "Amirani" kinoteatrı, Azərbaycanda Bakıda, Qaxda, Balakəndə nümayiş etdirilmişdir.

Filmin büdcəsi 1,3 milyon və 1,5 milyon manatdır.

***Festivallar və mükafatlar***

2013-cü ildə Bakıda Mədəniyyət və Turizm Nazirliyinin teatr, musiqi, təsviri sənət və kino sahəsində təsis etdiyi "Zirvə" mükafatının 6-cı təqdimetmə mərasimində filmin yaradıcı heyətinə "Zirvə" mükafatı verilmişdir.

***Film üzərində işləyənlər***

Əsərin müəllifi : Aqil Abbas
Ssenari müəllifi : Aqil Abbas
Quruluşçu rejissor : Elxan Cəfərov
Quruluşçu operator : Nadir Mehdiyev
Quruluşçu rəssam : Rafiq Nəsirov
Bəstəkar ***: Polad Bülbüloğlu***
Musiqi redaktoru : Rauf Əliyev
Redaktor : Ramiz Fətəliyev
Rejissorlar : Əliqulu Səmədov, Ənvər Həsənov
Səs rejissoru : Bəkir Bəkirzadə

### 9. *Əliyevin əli (film, 2000)*

### 10. *Ən vacib müsahibə (film, 1971)*

Kinopovest analitik səpgidə jurnalist mənəviyyatından söhbət açır. Bu mənada ki, jurnalistin vicdanı, mənəviyyatı təmiz olmalıdır. O belə bir suala cavab tapmalıdır: "Həyatın mənası nədədir və mən insanlar üçün nə edə bilmişəm?"

Filmin qəhrəmanı Zaur (Hacımurad Yegizarov) radio jurnalistidir. O, süjet boyu bu sualın cavabını axtarır, lakin cavabı tapmaqda çətinlik çəkir, həyatın mürəkkəb təzadları onu çaşdırır.

***Film haqqında***

Film quruluşçu rəssam Fikrət Əhədovun kinoda ilk işidir.
Filmdən iki hissə operator Şərif Şərifovun diplom işidir.

***Film üzərində işləyənlər***

Ssenari müəllifi: Maqsud İbrahimbəyov
Quruluşçu rejissor: Eldar Quliyev
Quruluşçu operator: Rasim Ocaqov
Quruluşçu rəssam: Kamil Nəcəfzadə, Fikrət Əhədov
Bəstəkar: Polad Bülbüloğlu
Səs operatoru: Ələkbər Həsənzadə
Rejissor: Əşrəf Mamayev
Redaktor: İntiqam Qasımzadə
Filmin direktoru: Rimma Abdullayeva
Mahnı ifa edən: Polad Bülbüloğlu (titrlərdə yoxdur)

***11. Ərənlər (film, 2005)***

Film zorxanalardan və onun tarixindən bəhs edir. Xüsusilə Şah İsmayıl Xətainin dövründə ölkəyə yayılan, hünər məkanı olan zorxanalarda pəhləvanlar güləşir, məşq edir və müharibələrə hazırlaşırdılar. Çünki məhz pəhləvanlar bəzi müharibələrin həllediciləri rolunu oynayırdılar. Ona görə əsasən saraylarda tikilən zorxanalar yeni-yeni pəhləvanlar yetişdirməklə də məşğul idi.
Filmdə ""Dədə Qorqud" filmindəki kadrlardan istifadə edilmişdir.

***Film üzərində işləyənlər***

Ssenari müəllifi: Pərzad Abdinova

Rejissor: Ələkbər Muradov
Operatorlar: Sahib Səfərov, Vüqar Vaqifoğlu (Vüqar Şıxəliyev kimi)
Montaj: Aqil Abdullayev
Mətni oxuyan: Əli Məmmədov
Məsləhətçi: Fuad Dadaşov
Rejissor assistenti: Murad Muradov
Redaktor: Müsəllim Həsənov
Baş redaktor: Məqsəd Nur
İfaçılar: Abbasqulu Nəcəfzadə (zurna), Abbas Şəkərəliyev (balaban), Cavanşir Qasımov (davul, nağara)

Musiqilərindən istifadə edilən bəstəkar: ***Polad Bülbüloğlu*** ("Babək" filmindən) (titrlərdə yoxdur)

***12. Hökmdarın taleyi (film, 2008)***




Hökmdarın taleyi — Film Azərbaycan tarixinin ən mürəkkəb və çətin dövrünü əhatə edir. Ekran əsərinin dövlətçilik tariximizin qapalı məqamlarının öyrənilməsində xüsusi əhəmiyyət kəsb edir. Böyük dramaturq İlyas Əfəndiyevin "Hökmdar və qızı" faciəli pyesinin motivləri əsasında çəkilən filmin ssenari müəllifi yazıçı-dramaturq Elçin Əfəndiyevdir. "Hökmdar və qızı" filminin musiqisi ***Polad Bülbüloğluna*** məxsusdur. Mürəkkəb və çətin süjetə malik olan gərgin dramatizmi ilə fərqlənən film Şəkidə lentə alınmışdır.

***Məzmun***

Film hökmdarın siyasi meydanda tənhalığı haqqındadır və bu problem dövlətçilik problemidir. Siyasəti ilə onun ətrafının razılaşmaması sonda İbrahimxəlil Xanın (Fəxrəddin Manafov) tək qalmasına və sonda qətlinə gətirib çıxarır. Bu film Azərbaycanın o vaxtkı xanlıqlarının əmin-amanlıqda yaşaması üçün birləşib bir dövlət yaratmamasından və Azərbaycan torpaqlarının Rusiya və İran kimi iki nəhəng imperiya tərəfindən zəbt edilməsindən bəhs edir. Filmin ssenarisi tarixi hadisələr üzərində qurulmuşdur.

***Film haqqında***

Filmin çəkilişi Azərbaycan Nazirlər Kabinetinin 8 iyun 2004-cü il tarixli sərəncamına əsasən, Azərbaycan Mədəniyyət Nazirliyinə dövlət sifarişi verilib.

Babək prospektində böyük sahəli bir anbarın içində pavilyon qurulmuş, o pavilyonda İbrahim xanın evini, İran şahının sarayını quraşdırmışlar. Minlərlə kostyum tikilmiş, eskiz əsasında həmin dövrün dəbinə uyğun bu kostyumlar üçün İrandan parçalar gətizdirilmişdir. İran qoşunlarının, rus qoşunlarının, Azərbaycan qoşunlarının ifaçılarının hər biri üçün ayrıca forma tikilmiş, həmin dövrün silahları, toplar, mərmilər, tüfənglər və s. zavodlarda sifariş olunmuşdur. Otuzdan çox müəssisə bu film üçün işləmişdir.

Filmin hazırlıq dövrünə 2005-ci ilin avqust ayından, çəkilişlərinə 2006-cı ilin iyun ayından başlanılmışdır.

Azərbaycan dilində kiçik rollar Bakıda, əsas rollar isə "Mosfilm"in nəzdində fəaliyyət göstərən "Ton studio"da səsləndirilmişdir.

Film Azərbaycanda bu günə kimi istifadə edilməyən dolbi 1/5 sistemində səsləndirilmişdir.

Bütün texniki avadanlıqlar, eləcə də işıq və səs avadanlıqları Moskvadan gətirilmişdir.

Son çəkiliş günü 2006-cı ilin 3 oktyabrında olmuş və 2007-ci il avqustun 1-ə qədər montaj işi getmişdir.

Çəkilişlər bitdikdən sonra filmin kütləvi səhnələrində istifadə olunan geyimlər, silah və toplar "A. S. V. A. Profi Studiya XXI" Prodüser Mərkəzinin Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə bağlanmış müqaviləyə əsasən, həmin müddətdə lentə alınan "Cavad xan" filminə verilmişdir.

Filmin çəkilişlərində Şəki Dövlət Dram Teatrından aktyorlar da cəlb edilmişdir.

Filmdə aktyorları müəllifin razılığı ilə Fəxrəddin Manafovla Vaqif Əsədullayev təsdiq edib. Eyni zamanda Fəxrəddin Manafov filmdə aktyorlarla işləyib. Daha sonra isə bu işə Ramiz Fətəliyev

və Dilşad Fatxulin cəlb olunub. Filmdəki müəyyən dövr Ramiz Fətəliyevlə birgə işlənib, ancaq yaradıcılıq fikirləri fərqli olduğundan ayrılmalı olublar. Filmi Fəxrəddin Manafov, Dilşad Fatxulin və Vaqif Əsədullayev birgə bitirib.

Azərbaycan kino tarixində dövlət büdcəsindən indiyə qədər ən çox maliyyə ayrılan film budur: 1 milyon manat.

Film İlyas Əfəndiyevin "Hökmdar və qızı" əsəri əsasında çəkilib.

***Filmin heyəti***

Film üzərində işləyənlər
Əsərin müəllifi: İlyas Əfəndiyev
Ssenari müəllifi: Elçin
Prodüser: Vaqif Əsədullayev
Quruluşçu rejissorlar: Ramiz Fətəliyev, Dilşad Fatxulin
Quruluşçu operator: Dilşad Fatxulin
Quruluşçu rəssam: Əziz Məmmədov
Bəstəkar: ***Polad Bülbüloğlu***

### 13. *İşgüzar səfər (film, 1982)*

Filmdə mənəvi-etik problemlərə toxunulur. Müasirimiz olan sadə və təmiz qəlbli gəncin həyat sınaqları kino əsərinin əsasını təşkil edir.

***Film haqqında***

Film aktyor Fəxrəddin Manafovun kinoda ilk işidir.
Film aktrisa Sidiqqə Heydərovanın kinoda ilk işidir.
Film Rüstəm İbrahimbəyovun "İşgüzar səfər" povesti əsasında çəkilmişdir.

***Film üzərində işləyənlər***

Ssenari müəllifi: Rüstəm İbrahimbəyov
Quruluşçu rejissor: Rasim İsmayılov
Quruluşçu operator: Hüseyn Mehdiyev
Quruluşçu rəssam: Rafiz İsmayılov
Bəstəkar***: Polad Bülbüloğlu***
Rejissor: Elmira Əliyeva
Filmin direktoru: Akif Musayev, Nadir Əliyev
Musiqilərindən istifadə edilən bəstəkar: Tomazo Albinoni, Tofiq Bakıxanov, Səid Rüstəmov

### 14. *"İstintaq davam edir" (film, 1966)*

Filmdə Vətənin təhlükəsizliyinin və Bakı şəhərinin əhalisinin əmin-amanlığının qorunmasında Azərbaycan çekistlərinin və milisinin fəaliyyətindən, sıravi vətəndaşların sayıqlığından söhbət açılır. Filmdə təhlükəsizlik orqanları tərəfindən xarici kəşfiyyatın apardığı əməliyyatın açılmasından bəhs olunur.

***Film haqqında***

Film aktrisa Larisa Xələfovanın kinoda ilk işidir.

Film aktyor Fuad Poladovun kinoda ilk işidir.

Film aktyor Ənvər Həsənovun kinoda ilk işidir.

Film yazıçı Cəmşid Əmirovun "Sahil əməliyyatı" povestinin motivləri əsasında lentə alınmışdır.

Film bəstəkarı ***Polad Bülbüloğlunun*** kinoda ilk işidir.

Prokata çıxdığı 1-ci il əzrində filmə 28,2 milyon tamaşaçı baxdı.[2] Bu, 1963-cü ildən bəri çəkilən filmlərimiz arasında ən yüksək göstəricidir.

***Film üzərində işləyənlər***

Əsərin müəllifi: Cəmşid Əmirov
Ssenari müəllifi: Cəmşid Əmirov, Mixail Maklyarski
Quruluşçu rejissor: Əlisəttar Atakişiyev
Quruluşçu operator: Əlihüseyn Hüseynov
Quruluşçu rəssamlar: Nadir Zeynalov, Elbəy Rzaquliyev
Bəstəkar: Polad Bülbüloğlu
Filmin direktoru: Əli Məmmədov
Mahnıları ifa edən: Natavan Şeyxova

15. ***Konsert proqramı (film, 1971) (II)***

16. ***Qorxma, mən səninləyəm! 1919 (film, 2013)***




Filmdə hadisələr XIX əsrin sonu – XX əsrin əvvəllərində baş verir. Zülmkarlara qarşı mübarizə iki sevən gəncin məhəbbəti fonunda baş verir.

Filmdə ideal qəhrəmandan, xeyirxah, cəsur, imkansızlara əl tutan, gücsüz adamların müdafiəsinə qalxan sirk artisti Rüstəmdən (Muxtarbəy Kantemirov), onun sədaqətli dostlarından söhbət açılır.

Bu filmin janrını dəqiq təyin etmək çətindir. Burada musiqi də, gözəl mahnılar da var, sərgüzəştlər, gözlənilməz, qeyri-adi hadisələr də. Ekranda Azərbaycanın füsunkar təbiəti, onun mənzərəli dağları və vadiləri öz təcəssümünü tapmışdır.

***Film haqqında***

Film aktyor Nizami Musayevin kinoda ilk işidir.

Film aktyor Ramiz Novruzovun kinoda ilk işidir.

Film müğənni və bəstəkar ***Polad Bülbüloğlunun*** aktyor kimi kinoda ilk işidir.

Film Mərkəzi televiziyanın (Moskva) sifarişi ilə çəkilmişdir.

Film 1-ci kateqoriya layiq görülmüşdür.

***Film üzərində işləyənlər***

Ssenari müəllifləri: Yuli Dunski, Valeri Frid
Quruluşçu rejissor: Yuli Qusman
Quruluşçu operator: Valeri Kərimov

Quruluşçu rəssam: Nadir Zeynalov
Bəstəkar: Polad Bülbüloğlu
Mahnıların mətni: Aleksey Didurov
Mahnı ifa edən: ***Polad Bülbüloğlu***, İrina Ponarovskaya, İosif Kobzon, Mirzə Babayev, Vladimir Vinokur
Ansamblın rəhbəri: Bari Alibasov
Rejissor: Səməd Lazımov
Redaktor: Nadejda İsmayılova, Əhmədağa Qurbanov
Filmin direktoru: Nadir Əliyev

***17. Mahnı qanadlarında (film, 1972)***

Film-konsert tamaşaçıları bir saat ərzində mahnının qanadlarında gəzdirir, onları Bakının füsunkar gözəlliyi, geniş panoramı ilə tanış edir. Konsertin əsas iştirakçıları müğənnilərdən Polad Bülbüloğlu, İlhamə Quliyeva, Flora Kərimova, Oqtay Ağayev,Cavan Zeynallı, Cavanşir Əliyev, beynəlxalq və ümumittifaq müsabiqələr laureatı "Qaya" Vokal Kvarteti, "Sevil" Vokal İnstrumental Ansamblı, Azərbaycan Dövlət Filarmoniyasının oğlanlardan ibarət rəqs qrupu və başqa yaradıcılıq kollektivləridir. Müğənnilər bəstəkarlardan Tofiq Quliyevin, Cahangir Cahangirovun, Xəyyam Mirzəzadənin, Oqtay Kazımovun, Tofiq Babayevin, Vasif Adıgözəlovun mahnılarını ifa edirlər. Bəstəkar ***Polad Bülbüloğlu isə*** öz mahnılarını oxuyur.

***Film haqqında***

Film Mərkəzi Televiziyanın (Moskva) sifarişi ilə çəkilmişddir.

Filmdə Cavan Zeynallı "Abşeron" (mus.: Tofiq Quliyev), "Neft Daşları haqqında mahnı" (mus. Tofiq Quliyev), Flora Kərimova "Yağma yağış" (mus.: Xəyyam Mirzəzadə), "Qaytar eşqimi" (mus. Oqtay Kazımov söz: Fikrət Qoca), "Tələsir qatarlar" (mus. Vasif Adıgözəlov), Polad Bülbüloğlu "Bakı haqqında mahnı" (mus. P.Bülbüloğlu), "Ürək nəğməsi" (mus. P.Bülbüloğlu), Oqtay Ağayev "Gözəl yurdum" (mus. Solovyov-Sedoy və Tofiq Quliyev), "Bu şəhərdə" (mus. Tofiq Babayev), İlhamə Quliyeva "Sırğalar" (mus. X.Mirzəzadə), Cavanşir Əliyev "Bakının qızları" (mus: O.Kazımov), "Gün başlayır" (mus.: T.Babayev) mahnılarını ifa edirlər. Həmçinin filmdə Çinar Rəqs Ansamblının "Yallı" və "Lirik rəqs"i, Azərbaycan Dövlət Filarmoniyası Rəqs Ansamblının "İgidlər" rəqsi, Sevil Vokal Kvartetinin "Qarabağ" (mus. Cahangir Cahangirov) mahnısı, Qaya Vokal Kvartetinin "Çal-oyna" mahnısı yer almışdır.

***Film üzərində işləyənlər***

Quruluşçu rejissor: Kamil Rüstəmbəyov
Ssenari müəllifi: Kamil Rüstəmbəyov, Rasim İsmayılov
Quruluşçu operator: Rasim İsmayılov
Quruluşçu rəssam: Nadir Zeynalov
Səs operatoru: Kamal Seyidov
Quraşdırılmış çəkilişlərin operatoru: Həmzə Əhmədoğlu
Quraşdırılmış çəkilişlərin rəssamı: Mirzə Rəfiyev
Aparıcı: Hacımurad Yegizarov
Musiqilərindən istifadə edilən bəstəkarlar: Tofiq Quliyev, Cahangir Cahangirov, Xəyyam Mirzəzadə, Oqtay Kazımov, Tofiq Babayev, Vasif Adıgözəlov, ***Polad Bülbüloğlu.***

***Filmdə iştirak edənlər***

Polad Bülbüloğlu
Cavan Zeynallı
Cavanşir Əliyev
İlhamə Quliyeva
Flora Kərimova
Oqtay Ağayev
"Qaya" Vokal Kvarteti
"Sevil" Vokal İnstrumental Ansamblı

***18. Mən mahnı qoşuram (film, 1979)***

Kənd dəyirmançısının qızı Sona (Olqa Rojdestvenskaya) gözəl mahnılar oxuyur. Bakıdan gələn musiqi müəllimi Fərhad bu qızı özü ilə şəhərə aparmaq, musiqi məktəbində oxutdurmaq istəyir. Qızın atası (Həsənağa Turabov) isə uşağını həkim görmək arzusundadır. Kənd camaatının təkidi və qızın istəyi ilə nəhayət ata nəinki razılıq verir, hətta uşağını özü Bakıya aparır.

***Film haqqında***

Filmin azərbaycanca variantının neqativi yararsız halda olduğu üçün Azərbaycan Televiziyasında filmin azəri variantındakı səsləri rus variantına köçürərək filmi bərpa etmişlər.
Kinolent Mərkəzi televiziyanın (Moskva) sifarişi ilə çəkilmişdir
Film 1-ci kateqoriyaya layiq görülmüşdür.

***Festivallar və mükafatlar***

Film Ümumittifaq Pioner Təşkilatı Mərkəzi Şurasının Fəxri Fərmanına layiq görülmüşdür.

***Film üzərində işləyənlər***

Ssenari müəllifi: İbrahim İbrahimov, Tofiq İsmayılov
Quruluşçu rejissor: Tofiq İsmayılov
Quruluşçu operator: Zaur Məhərrəmov
Quruluşçu rəssam: Nadir Zeynalov
Bəstəkar***: Polad Bülbüloğlu***
Rejissor: Pərviz Cəfərov, Ə. Məmmədov
Mahnıların mətni: Onegin Hacıqasımov, İlya Reznik, Fikrət Qoca
Mahnıları ifa edən: Olqa Rojdestvenskaya, ***Polad Bülbüloğlu***, Firəngiz Şərifova
Səs operatoru: Tofiq Babayev, Əsəd Əsədov
Baletmeyster: Əminə Dilbazi
Redaktor: Çingiz Qaryağdı
Filmin direktoru: Gennadi Lapşuk

***19. Mənə inanın! (film, 2007)***

***20. Mənim günahım (film, 1985)***

Film-tamaşa İlyas Əfəndiyevin əsərinin motivləri əsasında ekranlaşdırılmışdır.

***Film-tamaşanın heyəti***

***Film-tamaşa üzərində işləyənlər***

Əsərin müəllifi: İlyas Əfəndiyev
Quruluşçu rejissor: Amaliya Pənahova
Televiziya rejissoru: Məhərrəm Bədirzadə
Quruluşçu operator: Eldar Abbasbəyli
Operator: İzzət Əzizov, Elxan Nəbiyev
Musiqilərindən istifadə edilən bəstəkar: Rauf Əliyev ("Qaladan tapılan mücrü" filmindən), Xəyyam Mirzəzadə ("Bağ mövsümü" filmindən), Polad Bülbüloğlu ("Ürək...Ürək..." filmindən), Pol Moria-Simpatiya (Paul Mauriat — Sympathy) (titrlərdə yoxdur)
Repertuarından istifadə edilən müəllif: Maykl Cekson, Modern Tokinq (titrlərdə yoxdur)

21. ***Mir Teymur (film, 2003)***

22. ***Nə vaxta qədər? (film, 1974)***

23. ***Nəğməkar torpaq (film, 1981)***

Azərbaycanın incəsənət ustalarının iştirakı ilə çəkilmiş bu film kino dili ilə Azərbaycanın rəngarəng və günəşli palitrasını tamaşaçılara təqdim edir. Filmdə muğam musiqisi, müasir estrada mahnıları və xalq melodiyaları əsasında yaradılmış caz kompozisiyaları səslənir.

***Film haqqında***

Filmdə "Arşın mal alan" bədii filmindəki kadrlardan istifadə edilmişdir.
Film Mərkəzi Televiziyanın (Moskva) sifarişi ilə çəkilmişdir.
Film 1-ci kateqoriyaya layiq görülmüşdür.

***Filmin üzərində işləyənlər***

Ssenari müəllifi: Vaqif Səmədoğlu, Ruslan Şahmalıyev
Quruluşçu rejissor: Ruslan Şahmalıyev
Quruluşçu operator: Kənan Məmmədov
Bəstəkar: Tofiq Quliyev
Musiqi rəhbəri: Tofiq Quliyev
Redaktor: Faiq Dərgahov
Səs operatoru: Akif Nuriyev
Quruluşçu rəssam: Fikrət Əhədov
Filmin direktoru: Tələt Rəhmanov, İbrahim Səfərov
Mətni oxuyan: Şahmar Ələkbərov
Musiqilərindən istifadə edilən bəstəkarlar: Üzeyir Hacıbəyov, Sergey Raxmaninov, Aleksandr Skryabin, Qara Qarayev, Fikrət Əmirov, Tofiq Quliyev, Emin Sabitoğlu, ***Polad Bülbüloğlu***, Müslüm Maqomayev, Elza İbrahimova, Mehriban Əhmədova

***Filmdə iştirak edənlər***

Niyazi
Rəşid Behbudov

Müslüm Maqomayev
Lütfiyar İmanov
Zeynəb Xanlarova
Fərhad Bədəlbəyli
Habil Əliyev
Polad Bülbüloğlu
Gülarə Əliyeva
Xuraman Qasımova
Flora Kərimova
Akif İslamzadə
Aşıq Hüseyn Saraclı
Xeyransa Məmmədova
Üzeyir Hacıbəyov Adına Azərbaycan Dövlət Simfonik Orkestri
Mirzə Fətəli Axundov Adına Azərbaycan Dövlət Opera və Balet Teatrı
Azərbaycan Dövlət Rəqs Ansamblı
"Qaya" Vokal-İnstrumental Ansamblı
"Qarabağ bülbülləri" ansamblı

***24. Oxuyur Müslüm Maqomayev (film, 1971)***




Müəlliflər tamaşaçıları görkəmli Azərbaycan müğənnisi Müslüm Maqomayevin parlaq və çoxcəhətli yaradıcılığı ilə tanış edir. O, filmdə "Şah İsmayıl", "Faust", "Yevgeni Onegin", "Riqoletto" operalarından ariyalar, sovet bəstəkarlarının əsərlərini ifa edir. Filmdə müğənninin yaradıcılıq laboratoriyası, onun tərcümeyi-halının ayrı-ayrı səhifələri, Maqomayevin mahnı, səhnə obrazı üzərində necə işlədiyi, onun musiqi, mahnı barədə fikirləri də öz əksini tapmışdır.

Film Mərkəzi Televiziyanın (Moskva) sifarişi ilə çəkilmişdir.

***Film üzərində işləyənlər***

Ssenari müəllifi: Tofiq İsmayılov, İqor Boqdanov
Quruluşçu rejissor: Tofiq İsmayılov
Quruluşçu operator: İqor Boqdanov
Bəstəkar: ***Polad Bülbüloğlu***
Səs operatoru: Vladimir Savin
Rejissor: Əbdül Mahmudov
Montaj edən: T.Lixaçeva, Y.Fomina
Assistent: D.Əsədov, R.Səfərəliyev
Qrim edən: V.Bereznyakov
Redaktor: K.Jdanova, Eyvaz Borçalı
Filmin direktoru: A.Dudiyev

***25. Oxuyur Şövkət Ələkbərova (film, 1970)***

***26. Papaq (film, 2007)***

Film kişilik və namus rəmzi olan papağın anlamlarından bəhs edir. Məşhur papaqçı Mustafa kişi papağın mənşəyi və növləri barədə maraqlı məlumatlar verir.

***Film haqqında***

Filmdə "Axırıncı aşırım", "Dəli Kür", "O olmasın, bu olsun", Qorxma, mən səninləyəm, "Evlənmək istəyirəm" filmlərindəki fraqmentlərdən istifadə olunmuşdur.
Filmdə diktor mətni yoxdur.

***Film üzərində işləyənlər***

Rejissor: Nəsimi Məmmədoğlu
Operator: Zaur Hüseynov
Montaj: Elnur Ehtiramoğlu
Prodüser: Dilbər Ağayeva
Redaktor: Orman Çingizoğlu

***Arxiv kadrlarda iştirak edənlər***

Xurşidbanu Natəvan (şəkil) (titrlərdə yoxdur)
Həsən Məmmədov ("Axırıncı aşırım", "Evlənmək istəyirəm" filmlərindən) (titrlərdə yoxdur)
Adil İsgəndərov ("Axırıncı aşırım" filmindən) (titrlərdə yoxdur)
Eldar Əliyev ("Dəli Kür" filmindən) (titrlərdə yoxdur)
Ələddin Abbasov ("Dəli Kür" filmindən) (titrlərdə yoxdur)
Məmməd Bürcəliyev ("Dəli Kür" filmindən) (titrlərdə yoxdur)
Əliağa Ağayev ("O olmasın, bu olsun" filmindən) (titrlərdə yoxdur)
Həsənağa Turabov ("Qorxma, mən səninləyəm" filmindən) (titrlərdə yoxdur)
Polad Bülbüloğlu ("Qorxma, mən səninləyəm" filmindən) (titrlərdə yoxdur)
Lev Durov ("Qorxma, mən səninləyəm" filmindən) (titrlərdə yoxdur)
Muxtarbəy Kantemirov ("Qorxma, mən səninləyəm" filmindən) (titrlərdə yoxdur)
Muxtar Maniyev (şəkil) (titrlərdə yoxdur)
Ağarəfi Rəhimov ("Evlənmək istəyirəm" filmindən) (titrlərdə yoxdur)
Mayak Kərimov ("Evlənmək istəyirəm" filmindən) (titrlərdə yoxdur)
Rauf Gözəlov ("Evlənmək istəyirəm" filmindən) (titrlərdə yoxdur)
Zirəddin Tağıyev (Z. Tağıyev kimi) ("Evlənmək istəyirəm" filmindən) (titrlərdə yoxdur)

***27. Payızın 17 anı (film, 2007)***

Film 2006-cı il noyabr ayının 24-dən dekabrın 11-ə qədər bağlanan ANS televiziyasının 17 gününü əks etdirir. 17 gün bağlı qalan ANS televiziyası filmdə bağlanma səbəblərinə toxunmur, sadəcə olaraq o günləri bir daha xatırlayır.

***Filmin heyəti***
***Film üzərində işləyənlər***

Müəllif : Mir Şahin

Prodüser : Amil Hacıyev
Rejissor : Kənan Mustafayev
Montaj : Amil Hacıyev
Montaj assistentləri : Aydın Vəziroğlu, Ələkbər Azəroğlu
ANS Qrafika : Seymur Əlibəyov, Səməd Abbasov
Arxivarius : Gülnaz Əliyeva, Lamiyə Süleymanlı
Operator : Ramin Yaqubov
Musiqisindən İstifadə edilən Bəstəkar : ***Polad Bülbüloğlu*** ("Babək" filmindən) (titrlərdə yoxdur)
Aparıcı : Mir Şahin (titrlərdə yoxdur)

28. ***"Pəncərədə işıq" (film, 1987)***

29. ***"Poladın mahnıları" (film, 1982)***

Film-konsert görkəmli Azərbaycan bəstəkarı və müğənnisi, respublikanın xalq artisti Polad Bülbüloğlunun yaradıcılığını əks etdirir.
Filmdə bəstəkar və müğənni müxtəlif mahnılar ifa edir.

***Film üzərində işləyənlər***

Ssenari müəllifi : Tofiq Mirzəyev
Rejissor: Tofiq Mirzəyev
Operator: Nəriman Şıxəliyev
Səs rejissoru: Ruhəngiz Qasımova
Montaj edən: Səyyarə Namazova
Səs operatoru: R.Rüstəmov
Operator assistenti: F.Bağırzadə
Redaktor: Rafiq Cəbiyev
Filmin direktoru: Mübariz Qasımov

30. ***"Rəfibəylilər" (film, 2009)***

31. ***"Sevinc buxtası" (film, 1977)***

Kinopovest XX əsrin əvvəlində Azərbaycanda baş verən dramatik hadisələri ekranda canlandırır. Burada 20-ci illərdə dünyada birinci dəniz neft mədəninin salınmasından və Bakı fəhlələrinin göstərdikləri misilsiz qəhrəmanlıqlardan, eyni zamanda Sovet Rusiyasının taleyinin Bakı neftinin hasilatından asılı olduğu tarixi şəraitdən bəhs olunur.

***Festivallar və mükafatlar***

1) 1978-ci ildə
Quruluşçu rejissor Eldar Quliyevə, ssenari müəllifi Georgi Mdivaniyə, quruluşçu operator Rasim İsmayılova, quruluşçu rəssam Rafiz İsmayılova və aktyor Əliabbas Qədirova filmə görə Azərbaycan SSR Dövlət Mükafatı verilmişdir.

***Film haqqında***

Film rejissor assistenti Süleyman Əhmədovun kinoda ilk işidir.

Filmin I seriyası "Təxribat Sabaha Təyin Olunub", II seriyası isə "Əfsanənin Başlanğıcı" adlanır.

***Film üzərində işləyənlər***

Ssenari müəllifi: Georgi Mdivani, Eldar Quliyev
Quruluşçu rejissor: Eldar Quliyev
Quruluşçu operator: Rasim İsmayılov
Quruluşçu rəssam: Rafiz İsmayılov
Bəstəkar: ***Polad Bülbüloğlu***
Montaj edən: Tahirə Babayeva
Səs operatoru: Kamal Seyidov
Quraşdırılmış səhnələrin operatoru: Həmzə Əhmədoğlu
Quraşdırılmış səhnələrin rəssamı: Mirzə Rəfiyev
Rejissor: Ramiz Əliyev
Operator: Yuri Varnovski
İşıqçı: A.Məmmədzadə
Rejissor assistenti: Süleyman Əhmədov, Vaqif Əsədullayev

### *32. Səmt küləyi (film, 1973)*




Tarixi-inqilabi film Azərbaycanda inqilabi hərəkatın iştirakçısı çex İvan Prokopyeviç Vatsekin xatirəsinə həsr olunmuşdur. Vatsek filmin baş qəhrəmanı Yanın(Aloiz Şveqlik) prototipidir.

Kinolent beynəlmiləlçilik ideyalarını, azadlıq uğrunda mübarizə aparan xalqların dostluğunu tərənnüm edir.

***Film üzərində işləyənlər***

Ssenari müəllifi : Yusif Səmədoğlu, İrji Marek, Lüdviq Toman
Quruluşçu rejissor : Eldar Quliyev
Quruluşçu operator : Yozef İllik
Quruluşçu rəssam : Kamil Nəcəfzadə, Boqumil Pokornı
***Bəstəkar : Polad Bülbüloğlu***
Səs operatoru : Ələkbər Həsənzadə
Rejissor : Ramiz Əliyev
Montaj edən : Tahirə Babayeva
Rejissor assistenti : Vaqif Əsədullayev

### *33. Səni axtarıram (film, 1981)*

Film-tamaşada Elçinlə (Yaşar Nuri) Gülnar (Firəngiz Mütəllimova) ilk dəfə tanış olurlar. Əvvəlcə sözləri düz gəlməsə də, sonralar bu çəkişmə məhəbbətə çevrilir. Lakin atasının sözündən çıxa bilməyən Gülnar məhəbbətini atasına qurban verməli olur.

***Film-tamaşanın üzərində işləyənlər***

Əsərin müəllifi : Aslan Qəhrəmanov
Quruluşçu rejissor : Tariyel Vəliyev
Quruluşçu operator : Eldar Məmmədov
Quruluşçu rəssam : Oqtay Quliyev
Operatorlar : Yusif Yaqubov, Yusif Dadaşov
Səs rejissorları : Rauf Haşımov, [[Akif Xəlilov
Səs operatorları : Murtuzəli Məmmədov, Arif Qurbanov
Rejissor assistenti : Sevil İbrahimova
Musiqisindən istifadə edilən bəstəkarlar : Emin Sabitoğlu[2] ("Ad günü", "Gün Keçdi", "Onun Bəlalı Sevgisi" filmlərindən), Polad Bülbüloğlu ("Var olun, Qızlar..." filmindən), Flora Kərimova, Mobil Babayev (titrlərdə yoxdur)

***34. Soyuq münasibət (film, 1985)***

***35. Sürüşmə (film, 1991)***

Film leninçi-bolşevik S.M.Kirovun Bakının ən uca yerində-Dağüstü parkda ucaldılmış möhtəşəm heykəlinin götürülməsi hadisəsi fonunda tarixi yaddaşımızın ağ ləkələrindən bəhs edir.
Filmdə Azərbaycan ədəbiyyatı klassiklərinin əsərlərindən və kino-foto sənədlərdən istifadə edilmişdir.

**Film üzərində işləyənlər**

Ssenari müəllifi: İmran İsmayıl
Rejissor: Nizami Abbas
Operator: Nizami Abbas, Mixail Xarçenko
Səs operatoru: Şamil Kərimov (Şamil Kərimli kimi)
Prodüser: Cavanşir Kamandar
Operator assistenti: Ramiz Ağayev (Ramiz Ağalı kimi), Rafiq Hacıyev (Rafiq Hacılı kimi)
Musiqisindən istifadə edilən bəstəkar: ***Polad Bülbüloğlu*** ("Babək" filmindən) (titrlərdə yoxdur)

***36. Şəki (film, 1977)***

Sənədli televiziya filmi Azərbaycanın ən gözəl bölgələrindən biri Şəki şəhəri, onun sakinləri, nailiyyətləri və özünəməxsus mədəniyyəti haqqında lirik hekayədir.

***Festivallar və mükafatlar***

1) 1978-ci ildə Vladivostokda VI Ümumittifaq televiziya filmləri festivalı

Sənədli film Naxodka şəhərinin Prizini almışdır.

***Filmin heyəti***
***Film üzərində işləyənlər***

Ssenari müəllifi: Elşad Quliyev
Rejissor: Vasif Babayev
Operator: Seyfulla Bədəlov
Səs rejissoru: Ramiz Bağırov
Səs operatoru: Ş.Qalabəyov
Mətni oxuyan: Rafiq Hüseynov (titrlərdə yoxdur)
Musiqilərindən istifadə edilən bəstəkarlar: ***Polad Bülbüloğlu*** ("Ürək... Ürək..." filmindən), Mobil Babayev ("Mezozoy əhvalatı" filmindən), Ramiz Mirişli ("Alma almaya bənzər" filmindən) (titrlərdə yoxdur)
Mahnı ifa edən: Şövkət Ələkbərova (titrlərdə yoxdur)

***37. Təcili yardım lazımdır (film, 1974)***

***38. Tikdim ki, izim qala (film, 1997)***

***39. Toy (film, 2005)***

Filmin çəkilişlərinə Xaçmaz rayonu Pərdiqıran kənd sakinləri köməklik göstərmişdir.

2015-ci ildə rejissor Həsən Əliyev tərəfindən eyniadlı 2-ci Toy filmi çəkilib. "Toy-2" Azərbaycanın ilk sikvel filmi olsa da tənqidçilər tərəfindən bəyənilməyib. Rejissor bu kinoda seksual azlıqları tənqid etdiyini bildirib. Bu da bəzi yerli LGBT üzvlərinin narazılığına səbəb olub.

2017-ci ildə Ramiz Hüseynzadə tərəfindən bu filmin davamı olaraq "Toydan sonra nağara" filmi çəkilsə də, bu film də tənqidçilər tərəfindən bəyənilməyib.

***Filmin heyəti***
***Film üzərində işləyənlər***

Quruluşçu rejissor: Həsən Əliyev
Rejissor assistenti: Ramin Hacıyev
Ssenari müəllifi: Həsən Əliyev, Ramin Hacıyev, Elnur Hüseynov
Quruluşçu operator: Fikrət Əsgərov
Montaj rejissoru: Elnar Həşimov
Səs rejissoru: Natiq Hüseynov
Koordinator: Tərlan Fərzullayev
Mahnını ifa edir: Ayaz Qasımov
Filmin direktoru: Camal Əliyev
Produser: Müşfiq Hətəmov
Kadrarxası səs: Kazım Abdullayev
Musiqilərindən istifadə edilən bəstəkar: ***Polad Bülbüloğlu,*** Eldar Mansurov, Ədalət Şükürov

***40. Uşaqlığın son gecəsi (film, 1968)***




Uşaqlığın son gecəsi — kinorejissor Arif Babayevin çəkdiyi bədii film. Arif Babayevin 1969-ci ildə ekranlara çıxan “Uşaqlığın son gecəsi” Maqsud İbrahimbəyovun eyniadlı hekayəsinin əsasında çəkilib deyilir. Əslində isə ssenarinin həmin hekayə ilə əlaqəsi yoxdur. “Uşaqlığın son gecəsi” hekayəsi Pirşağıda yay tətilini keçirən iki yeniyetmədən bəhs edir.

***Festivallar və mükafatlar***

1) 1969-cu ildə Kiyevdə Zaqafqaziya və Ukrayna respublikalarının "Prometey-69" III zona kinofestivalında Gənclik üçün ən yaxşı filmə görə Mükafat verilmişdir.

2) Bəstəkar Polad Bülbüloğluna ən yaxşı musiqiyə görə Xüsusi Diplom verilmişdir. Həm də film 4 əlavə mükafata layiq görülüb: ən yaxşı ssenariyə görə (Maqsud İbrahimbəyov), ən yaxşı rejissor işinə görə (Arif Babayev), ən yaxşı operator işinə görə (Zaur Məhərrəmov) və kişi rolunun ən yaxşı ifasına görə (Ənvər Həsənov).

***Film haqqında***

Filmin hazırlıqlarına 1967-ci ildən başlanılır və 1968-ci ildə çəkilişlərə start verilir. Film 6 aya çəkilib. 1969-ci ildə ekranlara çıxmışdır.

Film aktyor Səməndər Rzayevin kinoda ilk işidir.

Filmin bəstəkarı, xalq artisti Polad Bülbüloğludur. Final səhnəsindəki "Gəl, ey səhər!" rejissora elə təsir etmişdi ki, bəstəkara "Görərsən, bu mahnı sənin ən məşhur mahnılarından birinə çevriləcək" deyib. Filmdə eyni zamanda The Beatles qrupunun məşhur "In My Life", "Michelle" mahnılarından istifadə edilib.

Muradla Rüstəmin işə getdiyi kadrlar Böyük Qala küçəsində lentə alınıb və bu zaman filmdə ayaqqabı ustası öz köşkündən çıxaraq Muradı səsləyir. Həmin ayaqqabı ustası Əhməd dayının işlətdiyi köşk, həqiqətən də, pinəçi köşkü idi. Həmin köşk uzun illər İçərişəhərdə fəaliyyətdə olub və ayaqqabı ustası Məmməd kişi həmin köşkdə çalışıb. O, populyar müğənni Elarizin atasıdır.

Filmin ilk səhnələri İçərişəhərdə Şirvanşahlar sarayının yanındakı məhəllədə aparılıb. Digər ev səhnələri isə Prezident Administrasiyasının arxasındakı məhəllədir. Davudun dama çıxdığı səhnənin həyət çəkilişi Çəmbərəkənddə, dam səhnəsi isə İçərişəhərdə aparılıb. Tikinti səhnəsi indiki Milli Məclisin binası yerləşən yerdir. Daha sonra ət kombinatında, “Yaşıl teatr”da, bulvarda, şəhərin küçələrində, binaların girişlərində çəkilişlər aparılıb. Yeməkxana səhnəsi kinostudiyanın yeməkxanasında nahar vaxtı çəkilib.

Filmdə məşhur Davud obrazı rejissorun qardaşı Akifin prototipidir. Akif özü də quş saxlayan və baməzə adam olduğu üçün Arif Babayev Davudun timsalında qardaşının surətini filmə gətirib. Məmmədsadıq Nuriyev də Akifi yaxşı tanıdığı üçün obrazı məharətlə yaradıb. Nənə rolunu oynayan Törəxanım Zeynalova Musiqili Komediya Teatrında kostumer vəzifəsində çalışırdı. Elya obrazını yaradan Meqi Kejeradze Gürcüstandan dəvət olunmuşdur. Megi Kejeradze 1960-65-ci illərdə Tbilisi Xarici Dillər İnstitutunda təhsil alıb.

***Filmin heyəti***
***Film üzərində işləyənlər***

Ssenari müəllifi: Maqsud İbrahimbəyov
Quruluşçu rejissor: Arif Babayev
Quruluşçu operator: Zaur Məhərrəmov
Quruluşçu rəssam: Elbəy Rzaquliyev
Bəstəkar: Polad Bülbüloğlu
Rejissor: Fikrət Əliyev
Filmin direktoru: Yusif Yusifzadə

### *41. Ürək nəğməsi (film, 1989)*

Film-portret Azərbaycanın görkəmli bəstəkarı, xalq artisti Tofiq Quliyevə həsr olunmuşdur. Burada yazıçı Mirzə İbrahimov, musiqiçi O.Lundstrem, rəssam Tahir Salahov, bəstəkar və müğənnilərdən ***Polad Bülbüloğlu***, Müslüm Maqomayev, bəstəkarlardan Qara Qarayev, Kajlayev, musiqiçi Fərhad Bədəlbəyli onun barəsində söz deyirlər.

Ekranda 1942-ci ilin kinoxronikası göstərilir: caz orkestri müharibə dövründə çıxş edir. Bizim günlərin kinoxronikasında biz Tofiq Quliyevi və Rəşid Behbudovu bir yerdə görürük, onların söhbətlərini dinləyirik. Müğənnilər məşhur bəstəkarın mahnılarını ifa edirlər. "Bəxtiyar" bədii filmində R.Behbudov mahnı oxuyur...

***Filmin heyəti***
***Film üzərində işləyənlər***

Rejissor: Sevinc Kərimova
Ssenari müəllifi: Sevinc Kərimova
Operator: Nəriman Şıxəliyev
Səs rejissoru: S.Rzayeva

### *42. Ürək... Ürək... (film, 1976)*




Ağılla hisslərin ahəngdar əlaqələndirilməsi bu gün də insan probleminin vacib aspekti olaraq qalmaqdadır. Yeni psixologiyaya malik insanın yaşadığı indiki dövrdə bu məsələ böyük ictimai əhəmiyyət kəsb edir. Film aktual bir məsələyə-müasir əxlaq probleminə həsr olunmuşdur.

Əsərin qəhrəmanı Muradın (Həsənağa Turabov) mehriban ailəsi, uşağı, yaxşı vəzifəsi var. Baş verən bir təsadüf nəticəsində o, bütün bunlardan üz döndərmək istəyir. Ürəyinin dərinliklərində baş qaldıran sevgi hissi onda hər şeyə qarşı biganəlik yaradır. Murad idmançı Ramizin (Yevgeni Kindinov) həyat yoldaşı, sirk ustası Lenaya (Lyubov Virolaynen) vurulur. Bütün bunlara baxmayaraq, Murad həyatını dəyişməyə özündə cəsarət tapmır və əsl məhəbbətinə xəyanət edir.

Müəlliflər göstərirlər ki, insan vərdiş etdiyi həyat çərçivəsindən kənara çıxanda bəzən bu onun faciəsi ilə nəticələnir. Axı hərtərəfli insan böyük ağıl, dərin biliklə yanaşı, həm də dolğun hisslərə, ehtiraslara, geniş qəlbə malik olmalıdır

***Film haqqında***
Film yazıçı Rüstəm İbrahimbəyovun "Şirə bənzər" pyesi əsasında ekranlaşdırılmışdır.

***Filmin heyəti***
***Film üzərində işləyənlər***

Ssenari müəllifi: Rüstəm İbrahimbəyov
Quruluşçu rejissor: Eldar Quliyev
Quruluşçu operator: Arif Nərimanbəyov
Quruluşçu rəssam: Mais Ağabəyov
Bəstəkar: ***Polad Bülbüloğlu***
Mahnıların mətni: Fikrət Qoca (Az. var.), Y. Ryaşentsev (Rus var.)
Rejissor: Fikrət Əliyev, Adil İsmayılov
Operator: Ələsgər Ələkbərov (II)
Rejissor assistenti: X. Şirinov, E. Rəsulova
Operator assistenti: S. Kaşiyev
Rəssam assistenti: A. Stepanova, P. Məlikov
Qrim rəssamı: N. Matveyeva
İşıq ustası: M. Rəhmanov
Ansamblın rəhbəri: Teymur Mirzəyev
Redaktor: Nadejda İsmayılova
Filmin direktoru: Rimma Abdullayeva
Filmin direktor müavini: Nadir Əliyev

***43. Var olun, qızlar... (film, 1972)***

Film həqiqətən baş vermiş hadisə – 1958-ci ilin yayında Abşeron çimərliklərindən birində dənizdə batan uşaqları xilas edərkən özü həlak olan Bakı məktəblisi Tofiq Hüseynova ithaf edilmişdir. Kinolent həlak olmuş gəncin məhz kimləri xilas etdiyi, xilas edilmiş qızların sonrakı taleyi barədə söhbət açır, filmdə müxtəlif talelər, xarakterlər açıqlanır.

***Film haqqında***

Film aktyor Rafael Dadaşovun kinoda ilk işidir.
Filmdə mövzudan mövzuya keçid o qədər dəqiq qurulmamışdır. Həmçinin rejissor filmdə aktyorluq qabiliyyəti olmayan şəxsləri çəkmişdir. Yazıçı Anar Murad rolunun öhdəsindən gələ bilmir.
Maraqlıdır ki, 1958-ci ildə dənizdə baş vermiş faciəli hadisə filmin çəkilişi zamanı yenidən təkrar olunacaqdı : bərk külək sahilə yaxın yerdə çimən balaca uşağı çəkib dənizin içərilərinə doğru aparır. Xoşbəxtlikdən Rüstəm rolunun ifaçısı, aktyor Ömür Nağıyev yaxınlıqda imiş. O. suya tullanıb batan uşağı xilas edir.

***Filmin heyəti***
***Film üzərində işləyənlər***

Ssenari müəllifləri: Alla Axundova, Hüseyn Seyidzadənin iştirakı ilə

Quruluşçu rejissor: Eldar Quliyev
Quruluşçu operator: Arif Nərimanbəyov
Bəstəkar: ***Polad Bülbüloğlu***
Rejissor: Əşrəf Mamayev
Qrim üzrə rəssam: S. Pozdeyeva
Montaj edən: Tahirə Babayeva
Redaktorlar: İntiqam Qasımzadə, Nataliya Şneyer
Filmin direktoru: Yusif Yusifzadə

***44. Yarımçıq xatirələr (film, 2015)***




Filmin təqdimat mərasimi 9 may 2015-ci ildə Nizami Kino Mərkəzində keçirilmişdir.

Film faşizm üzərində qələbənin 70 illiyinə həsr olunmuşdur.

Film Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə çəkilmişdir.

Gülzar Qurbanova 28 dekabr 2015-ci ildə "Yarımçıq xatirələr" filminə görə "Ən yaxşı qadın rolunun ifası" nominasiyasında "Qızıl Pəri" mükafatına layiq görülmüşdür.

Filmin çəkilişinə Müdafiə və Daxili İşlər nazirlikləri dəstək göstərib.

Filmdə erməni obrazlarını gürcü aktyorları canlandırmışdır.

Film Belarusfilm kinostudiyasının texniki dəstəyi ilə çəkilib.

Film Belarusun Brest, Minsk şəhərlərində, Vileyka qəsəbəsində, eyni zamanda Azərbaycanda lentə alınıb.

“Bizim kino günləri”ndə filmə baxış keçirilmişdir.

Film 2023-cü ildə "On5sıfır7" Film Həftəsində iştirak edib.

***Filmin heyəti***
***Film üzərində işləyənlər***

Ssenari müəllifləri : Konstantin Vorobyov, Yavər Rzayev
Quruluşçu rejissor : Elxan Cəfərov
Quruluşçu operator : Nadir Mehdiyev
Prodüser : Müşfiq Hətəmov
Quruluşçu rəssamlar : Rafiq Nəsirov, Vadim Şafranski
Bəstəkar : ***Polad Bülbüloğlu***
Səs operatoru : Tariyel Həsənzadə
Səs rejissoru : Mehman Nadirov
Montaj : Elşad Rəhimov
Rejissorlar : Tatyana Xvaley, Çingiz Həsənov
Redaktorlar : Ramiz Rövşən, Yusif Şeyxov
İcraçı prodüser : Azər Quliyev
Dialoqların müəllifi : Ramiz Fətəliyev
Geyim üzrə rəssamlar : Darya Romanova, Elfira Hüseynova
Maliyyə meneceri : Emil İbrahimov

Xətt prodüserləri : Aydın Hacıyev, Yuri İvanov

### *45. Yarımçıq qalmış mahnı (film, 1979)*

Kinolent özfəaliyyət vokal-instrumental ansamblı, onun Krım və Qara dəniz sahillərinə uğurlu qastrol səfərləri haqqında danışır. Ansamblın solisti Mikayıl Məmmədbəyli (Fərhad Yusifov) Moskvada Böyük Teatrda təcrübə keçmək üçün dəvətnamə alır, lakin yaradıcılıq əməkdaşlığına sadiq qalaraq bu dəvətdən istifadə etmir.

***Film haqqında***

Filmdə Müslüm Maqomayevin "Vesenniy kray", "Prisnivshayasya pesenka", "Yesli v mire yest lyubov", "Mı dlya pesni rojdenı", "Moya lyubov" mahnıları səslənir.

Filmdəki bütün mahnıları Müslüm Maqomayev ifa edir. Burada eyni zamanda gənc və istedadlı müğənninin yaradıcılıq yolunun başlanğıcından söhbət gedir.

Film yazıçı Maqsud İbrahimbəyovun "Baritonla Orkestr üçün Konsert" povesti əsasında ekranlaşdırılmışdır.

Film aktrisa Nataliya Tağıyevanın kinoda ilk işidir.

***Filmin heyəti***
***Film üzərində işləyənlər***

Ssenari müəllifi: Maqsud İbrahimbəyov
Quruluşçu rejissor: Maqsud İbrahimbəyov
Quruluşçu operatorlar: Valeri Kərimov, Vladimir Dmitriyevski
Bəstəkar: Müslüm Maqomayev
Quruluşçu rəssam: Elbəy Rzaquliyev
Səs operatoru: Kamal Seyidov
Rejissor: Rafiq Dadaşov
Redaktor: Nadejda İsmayılova
Musiqi redaktoru: Rauf Əliyev (R. Əliyev kimi)
Çalır: Mərkəzi Televiziyanın Ümumittifaq Radiosunun Estrada-Simfonik Orkestri
Dirijor : A. Mixaylov
Mahnı ifa edənlər: Müslüm Maqomayev, "Samotsvetı" Vokal Ansamblı, "Qaya" Vokal Kvarteti
Musiqilərindən istifadə edilən bəstəkarlar: Domeniko Modunyo, T. Babayev, ***Polad Bülbüloğlu,*** B. Çezare
Filmin direktoru: Aydın Dadaşov, Semyon Qaragedov

### *46. Yol əhvalatı (film, 1980)*

Şən və xeyirxah sürücü, gənc Mustafa (Vaxtanq Pançulidze) gözəl Zümrüdlə (Həmidə Ömərova) evlənmək arzusundadır. Ancaq oğlan qızın atasının, daha doğrusu, "işbaz", alverçi Qurbanın (Səyavuş Aslan) heç ürəyincə deyil. Bu uğursuz nişanlının öz sevgilisinə qovuşması üçün çalışması onu çətin vəziyyətlərə salır, amma o, inadından dönmür, nəhayət qalib çıxır. Zümrüd məhz ona ərə gedir.

Film iki sevən gəncin məhəbbəti fonunda əliəyrilərin ifşası ilə sona yetir.

Film Teymur Bəkirzadənin müstəqil rejissor kimi kinoda ilk tammetrajlı işidir.

***Filmin heyəti***
***Film üzərində işləyənlər***

Ssenari müəllifi: Asim Cəlilov
Quruluşçu rejissor: Teymur Bəkirzadə
Quruluşçu operator: Şərif Şərifov, Ələsgər Ələkbərov
Quruluşçu rəssam: Fikrət Əhədov
Bəstəkar***: Polad Bülbüloğlu***
Səs operatoru: Vladimir Savin
Rejissor: Rafiq Dadaşov
Montaj edən: Tahirə Babayeva
Redaktor: Ramiz Rövşən (R. Əliyev kimi), Nadejda İsmayılova
Çalır: Dövlət Kinematoqrafiya Orkestri və "Melodiya" İnstrumental Ansamblı
Bədii rəhbər: Eldar Şengelaya
İnzibatçı: F. Cəbiyev, Vladimir Dudniçenko, E. Nağıyev
Filmin direktoru: Rimma Abdullayeva

***47. Zəlimxan dastanı (film, 2007)***
***48. Zirvəyə gedən yol (film, 1995)***

***Rus dilində***
***Haqqında çəkilən film***




Полад Бюль-Бюль оглы - один из самых ярких композиторов и исполнителей отечественной эстрады. Он сумел соединить восточную музыкальную традицию с современными ритмами. Песни Полада Бюль- Бюль оглы исполняли лучшие, любимые зрителями солисты: Иосиф Кобзон, Лев Лещенко, Муслим Магомаев, Лариса Долина и многие другие.

В документальном фильме принимают участие: Иосиф Кобзон, Людмила Сенчина, Алла Иошпе, Стахан Рахимов, Лев Дуров, Юлий Гусман, Лариса Долина и Юрий Маликов.

https://www.youtube.com/watch?v=csgFkSRLsro